# "Şuşa. Azərbaycanın tarixi mədəniyyət paytaxtı" kitabı tacik dilində

**UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının və Azərbaycanın Tacikistandakı səfirliyinin dəstəyi ilə bu ölkənin Milli Kitabxanasında Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədovun "Şuşa. Azərbaycanın tarixi mədəniyyət paytaxtı" adlı tacik dilində nəşr olunmuş kitabının təqdimat mərasimi keçirilib. Kitaba Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın zəngin maddi-mədəni, tarixi, memarlıq irsi və Azərbaycanın əslən Şuşadan olan görkəmli şəxsiyyətləri haqqında məlumatlar və fotoşəkillərdən ibarət ayrıca fəsillər daxil edilib. Şuşanın müxtəlif tarixi mərhələlərini, işğaldan əvvəl, işğal vaxtı, azad edildikdən sonrakı dövrlərini əks etdirən çoxsaylı fotolar, o cümlədən ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Şuşaya səfərləri vaxtı çəkilmiş fotolar kitabı zənginləşdirir. Məzmununun və əks olunan materialların əhatəliliyinə görə seçilən, Şuşanın Azərbaycan tarixinin və mədəniyyətinin rəmzi olmasını təcəssüm etdirən bu kitab Şuşa haqqında beynəlxalq oxucuya təqdim olunan ilk əsərdir.**



Təqdimat mərasimində Tacikistanda akkreditə olunan diplomatik korpusun, dövlət qurumlarının, mədəniyyət sahəsinin nümayəndələri, işgüzar dairələrin, kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov 2022-ci ilin Azərbaycanda "Şuşa ili" elan olunduğunu bildirib, tədbir iştirakçılarına Şuşanın tarixi, əhəmiyyəti, şəhərin 30 ilə yaxın Ermənistanın işğalı altında qaldığı müddətdə dağıdılması, 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən azad olunması haqqında danışıb. Səfir kitabda Şuşanın tarixi, mədəniyyəti, musiqisi və ədəbi mühiti, tarixi və memarlıq abidələri, ictimai-siyasi həyatı, ədəbiyyatı, görkəmli şəxsiyyətləri barədə materialların əksini tapdığını bildirib.



Ə.Əskərov kitabın nəşrini təqdirəlayiq hal kimi dəyərləndirib, otuz ilə yaxın bir müddət ərzində düşmən tapdağında olan torpaqlarımızda ermənilər tərəfindən həyata keçirilən vandalizm siyasətinin dünyaya çatdırılmasında müəllifin xidmətlərini yüksək qiymətləndirərək ona uğurlar arzulayıb.

Təqdimat mərasiminə videoformatda qoşulan kitabın müəllifi Elçin Əhmədov bildirib ki, 2020-ci il noyabrın 8-də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz tərəfindən tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərinin işğalçılardan azad edilməsi Azərbaycanın Vətən müharibəsindəki uğurlu əks-hücum əməliyyatları sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə olub. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə, qədim Şuşa şəhərinin rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldığını vurğulayan professor dövlət başçısı İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyinin hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirən əsas amil olduğunu qeyd edib.

Müəllif Şuşanın Azərbaycanın tarixində, həmçinin siyasi və mədəni həyatında xüsusi yer tutduğunu vurğulayıb, erməni işğalından azad olunduqdan sonra şəhərdə aparılan quruculuq və bərpa işləri barədə ətraflı məlumat verib.

Digər çıxış edənlər Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və təbliği işində fəaliyyətinə görə kitabın müəllifinə minnətdarlıq edib, ona uğurlar arzulayıblar.

Tədbir çay süfrəsi arxasında davam edib.

**Qulu KƏNGƏRLİ**
**Düşənbə**

Xalq qəzeti .- 2022.- 30 dekabr.- S.14.